*8 Mart Beynəlxalq Qadınlar Günüdür*

# Azərbaycan qadın hərəkatı dünəndən bu günə

**“Zahiri gözəlliyi ilə daxili aləminin paklığının vəhdət təşkil etdiyi, öz səbri, təmkini ilə səciyyələnən Azərbaycan qadını dəyanət və sədaqət rəmzinə çevrilmişdir. Onun şəninə dastanlar qoşulmuş, ona dahilər və qəhrəmanlar anası deyilmişdir. Tariximizin keşməkeşli səhifələrinə Azərbaycan qadını qayğıkeş ana, fitri istedada malik şair, möhkəm iradəli hökmdar, dərin zəkalı mütəfəkkir kimi öz adını həkk etdirmişdir”.**

**Heydər ƏLİYEV.**
**Azərbaycanın Ümummilli Lideri.**

Böyük mədəni irsə malik olan Azərbaycan xalqı qadının ailədə və cəmiyyətdəki roluna daim böyük ehtiramla yanaşmışdır. Yaşadığı tarixi dövrdən, onun sosial-iqtisadi vəziyyətindən, coğrafi məkandan, irqindən, dilindən, dinindən asılı olmayaraq qadın bəşəriyyətin inkişafının bütün mərhələlərində özünəməxsus aparıcı qüvvə olmuşdur. Azərbaycan qadını çətin, keşməkeşli inkişaf yolu keçmişdir. Tarixə nəzər salsaq, görərik ki, cəmiyyətin inkişafının bütün mərhələlərində qadınlar kişilərlə bərabər dövlət quruculuğunda, siyasi qərarların verilməsində fəal iştirak etmişlər.

Tarixi palitra kifayət qədər zəngindir: massagetlərin məğrur çariçası, Əhəmənilər sülaləsinin əsasını qoymuş əfsanəvi Kirə qalib gəlmiş Tomris, qəhrəman qadın hökmdarlar Nüşabə, Şirvana hücum edən Krım xanını və Osmanlı qoşunlarını məğlub edən Heyran Nisə Bəyim, mərkəzləşdirilmiş Azərbaycan dövlətinin yaradıcısı Fətəli xanın həyat yoldaşı Tuti Bikə, Sara xatun, Dəspinə xatun və Məhinbanu Sultanım xanım özlərini diplomatiya sahəsində göstərmişlər. Mədəni fonda məşhur şairələr pleyadası parlamışdır: Orta əsrlər dövründə qadının sevgili seçimində azadlıq hüququnu tərənnüm etmiş Məhsəti Gəncəvi, Şuşada ilk ədəbiyyat məclisi yaratmış Xurşudbanu Natəvan, Heyran xanım, Fatma xanım Kəminə, Şahnigar xanım, Aşıq Pəri. Lakin “kişi” tarixinə yol açmış qadın hökmdarlar, döyüşçülər, diplomatlar, şairələr və rəssamlarımız nadir şəxsiyyətlər idi. XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda qadınların ictimai fəallığının çox gözəl nümunələri mövcuddur. O vaxtın qabaqcıl qadınları kifayət qədər düşünülmüş formada, belə demək mümkünsə, yeni gender münasibətlərinin kontekstini yaradırdılar. Və məhz onlar, adi xeyriyyəçilik tədbirləri keçirməklə ilk qadın məktəblərinin, qadın yığıncaqlarının və klublarının yaradılması vasitəsilə digər sosial fəal qadın qruplarının formalaşmasına dəstək oldular. Və bu prosesdə həmin xanımların həyat yoldaşları da onlara böyük yardım edir, birgə fəaliyyət göstərirdilər. Azərbaycanın görkəmli nümayəndələri xalqı maarifləndirmək, ona öz hüquq və vəzifələrini anlatmaq yolu ilə ictimai rəyə təsir göstərməyə çalışır, jurnalist və publisistlər “qadın bir şəxsiyyət kimi azad olmayınca onun problemləri həll olunmaz qalacaq!” ideyasını irəli sürürdülər. Bu mövzuda daha çox H.Zərdabi, Ə.Ağayev, M.Şahtaxtlı, C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, Ə.Razi, Ə.Nəzmi, M.Ə.Sabir, F.Köçərli, M.S.Ordubadi, C.Cabbarlı, N.Bəsir, H.İ.Qasımov, M.Rəsulzadə, S.Hüseyn, H.Minasazov, R.Məlikov, M.Qarayev, H.Vəzirov və başqaları yazırdılar. Öz səhifələrində qadın mövzusuna yer verən “Şərqi-Rus”, “Həyat”, “Səda”, “İrşad”, “Tərəqqi”, “Kaspi”, “Füyuzat”, “Molla Nəsrəddin”, “Dirilik”, “Zənbur”, “Tuti”, “Babayi-Əmir” və s. qəzet və jurnallar qadının əsasən üç mühüm problemindən - təhsil, ailə-nikah və sosial məsələlərdən bəhs edirdi. XX əsrin ilk illərində Azərbaycan qadınlarının mühüm problemlərindən biri - təhsil almaq imkanının məhdudluğu idi. Təhsilli qadın təhsilli millət, təhsilli nəsil deməkdir. Azərbaycanda qadınların təhsil alması, qadınlar arasında savadsızlığın aradan qaldırılması, qadın sağlamlığı, onların iqtisadi azadlığının təmin olunması məsələləri daim öz aktuallığını saxlamışdır.

Qadın azadlığı uğrunda mübarizənin ön səhnəsinə birinci olaraq imtiyazlı sinfin qadınları çıxmışlar. S.Tağıyeva-Ərəblinskaya, L.Tuqanova, İ.Aşurbəyova xeyriyyəçilik və maarifçilik fəaliyyətləri ilə məşhurlaşmış bir çox digər qadınlar qadın hüquqlarının müdafiəsi üçün əllərindən gələni əsigəmirdilər. Bu qadınlar çox yaxşı anlayırdılar ki, qadın istər ailədə, istərsə də cəmiyyətdə özünü ifadə etmək istəyirsə, mütləq təhsil almalı, iqtisadi cəhətdən təmin olunmalıdır. Qeyd etmək lazımdır ki, maarifçi-kişilərin ali cəmiyyətin qabaqcıl qadınlarına təsiri çox böyük idi. Demək kifayətdir ki, onların hamısı bir-biri ilə şəxsən tanış idilər. Elə Həsən bəy Zərdabinin özü “Nicat” qadın maarifçilik cəmiyyətinin yaradıcılarının ruhlandırıcılarından biri idi. Tanınmış ədib Cəlil Məmmədquluzadənin adı “İşıq” ilk qadın jurnalının işıq üzü görməsi ilə əlaqədardır. Belə misalları çox çəkmək olar.

Zaman göstərdi ki, görkəmli ziyalılarımızın zəhmətləri, səyləri hədər getmədi. Azərbaycan qadınları ictimai-siyasi həyatda da görünməyə başladılar. Hətta onlar artıq yetişmiş problemlərini qadınların özləri tərəfindən ictimai rəyə çatdıran “İşıq” kimi sırf qadın jurnalının meydana çıxmasına nail oldular. Zaman keçdikcə bu istiqamətlərdə iş aparılmış və bu gün ölkədə savadsız qadın yoxdur. Həmçinin 1911-ci ildə Xədicə Əlibəyovanın redaktorluğu ilə ilk dəfə qadın mətbuatı yarandı. “İşıq” jurnalının qadınların hüquqlarının qorunması, onların maariflənməsi üçün bütün ziyalı vətəndaşları səfərbər etdi. Az ömürlü (cəmi iki il) “İşıq” jurnalının müəllifləri təkcə Azərbaycan maarifçiliyi ideyalarının zirvəsində durmur, hətta bərabər seçki hüquqları uğrunda mübarizədə (Həlimə Axundova), qadın birliklərinin (Münəvvər Əlixanova), qadın vətənpərvərlik təşkilatlarının (Həyatxanım Çayqırağlı) yaradılmasında iştirak edirdilər. Q.Məlikova-Zərdabi, A.Əfəndiyeva, X.Əlibəyova, X.Vəzirova və bir çox başqaları artıq özləri təhsil prosesinin mərkəzində yerləşir, onu yaradır və azərbaycanlı qızlar üçün məktəbdə müəllimlik edirdilər. Sosial sarsıntılar dövründə ölkə, əsl təşkilati və təbliğati qabiliyyətlə fərqlənmiş gənc qadınların - Q.Cavanşir, A.Axundzadə, Q.Qazıyeva və başqalarının adlarını çəkmək olar. Eyni zamanda Avropa təhsilli X.Əzizbəyova, Ş.Əfəndiyeva, M.Bayraməlibəyova, R.Əzimzadə artıq özlərini siyasət zəminində axtarırdılar. Onlar maarifçilik və xeyriyyəçilik çərçivəsindən kənara çıxan qadın cəmiyyətləri yaradır və onlarla işləyirlər. Azərbaycan artıq XX əsrin əvvəllərində müsəlman Şərqində qadınların öz hüquqları uğrunda mübarizə apardığı ilk ölkədir. Bu sosial hərəkata Avropa ölkələrində dünyəvi təhsil almış qadınlar başçılıq etdilər. İlk qadın xeyriyyəçilik-qəyyumluq ittifaqını istedadlı pedaqoqlar Məryəm Bayraməlibəyova və Rəfiqə Əzimzadə təşkil edə bildilər.

Bütün bunlar artıq XX əsrin əvvəllərində Azərbaycan qadınının ciddi bir ictimai qüvvəyə çevrilməsini təsdiq edən əlamətlərdən biridir. Burada və digər mətbuat orqanlarının səhifələrində qadın müəlliflərinin çıxışlarının getdikcə intensivləşməsi, müxtəlif mövqeli müəlliflərlə fikir mübadiləsində onların öz mövqelərini daha inamla ortaya qoymaları və s. bir daha göstərdi ki, XX əsrin əvvəllərində Azərbaycan mətbuatının qadın azadlığı uğrunda apardığı çətin mübarizəsi nəticəsiz qalmadı. Əksinə, cəmiyyətin müxtəlif dairələri içərisində qadın problemləri üzrə mütərəqqi mövqe və meyillərin meydana çıxıb getdikcə daha da güclənməsinə dəstək verən amil oldu. Təsadüfi deyil ki, 1917-ci ildə Bakı Müsəlman İctimai Təşkilatlarının İcraiyyə Komitəsinə ərizə ilə müraciət ünvanlayan Behbud ağa Şahtaxtinski rayon ərzaq komitələrinə seçkilərdə müsəlman qadınların iştirakı məsələsini təklif kimi irəli sürdü. “Kaspi” qəzetinin yazdığına görə 1917-ci il mayın 19-da Bakı Qadın Müsəlman Xeyriyyə Cəmiyyətinin Şəfiqə xanım Əfəndizadənin sədrliyi ilə keçən yığıncağında Pəri xanım Topçubaşova rayon ərzaq komitələrinə qarşıdakı seçkilərdə qadınların da iştirak edəcəyi ilə bağlı məlumat verdi və məscidlərdəki seçkilərdə işləmək üçün 50 nəfər qadına ehtiyac olduğunu nəzərə çatdırdı. Bu qadınlar yığıncağın 200 iştirakçısı arasından seçildilər. Qadınların seçkilərdə iştirak edəcəyinə şübhə ilə yanaşanlar çox idi. Lakin seçki günü məscidlərin qarşısı səsvermədə iştirak etməyə gəlmiş çadralı qadınlarla dolu idi. Bakı müsəlman xeyriyyə cəmiyyətinin təyin etdiyi ziyalı qadınlar onların arasında gəzərək seçki qaydalarını başa salırdılar. Təxmini hesablamalara görə, 4 müsəlman seçki məntəqəsində 11 min qadın səs vermişdi. Bu, qadınlarımızın Azərbaycan Xalq Cümhuriyyətinin siyasi həyatında iştirakının debütü idi və onlar müsəlman Şərqində ilk dəfə olaraq seçkilərdə iştirak etmək hüququ qazandılar. Halbuki həmin dövrdə seçki sahəsində gender bərabərliyi prinsipi nəinki müsəlman Şərqində, hətta Avropa dövlətlərinin əksəriyyətində hələ öz həllini tapmamışdı. Dünyanın bir çox ölkələrində qadınlar seçki hüququ almaqdan ötrü çox mürəkkəb və uzun mübarizə yolu keçiblər. Hələ XVIII əsrin sonlarında seçki hüquqları uğrunda mübarizəyə başlamış ABŞ qadınları bu hüququ Azərbaycan qadınlarından sonra əldə etdilər. Yalnız 1920-ci ildə ABŞ senatı amerikalı qadınlara səs hüququ verən Konstitusiyaya 19-cu düzəlişi qəbul etdilər. Amerikalı qadınlar bu hüququ almaqdan ötrü 150 ildən artıq mübarizə aparmışdılar. Seçki hüququnu birincilər arasında 1906-cı ildə fin qadınları qazandılar. Norveçdə qadınlara seçki hüququ 1913-cü ildə, Danimarka və İslandiyada 1915-ci ildə, Rusiyada 1917-ci ildə, Kanadada 1918-ci ildə verildi. Feministlər Avstriyada, Almaniyada, Niderlandda, Polşada, İsveçdə, Lüksemburqda, Çexoslovakiyada 1919-cu ildə, ABŞ-da 1920-ci ildə, İrlandiyada 1922-ci ildə, Böyük Britaniyada yalnız 1928-ci ildə, nəhayət, İspaniya və Portuqaliya qadınları 1931-ci ildə seçki hüququ əldə etməyə nail oldular. Beləliklə, Azərbaycan qadınları müsəlman Şərqində birinci olaraq seçki hüququ aldılar. Azərbaycan milli liderləri, mütərəqqi ziyalı təbəqəsi və nəhayət, qadınlar özləri qadınların seçki hüququ alması uğrunda mübarizədə aktiv iştirak edirdilər.

Ümumiyyətlə qeyd etmək lazımdır ki, Müsəlman Şərqində və türk dünyasında ilk Demokratik Respublikanı yaratmaqla xalqımız sahib olduğu dövlətçilik ənənələrini bir daha təsdiq etdi. İnsan hüquq və azadlıqlarının bərqərar olması, etnik və dini mənsubiyyətdən asılı olmayaraq bütün vətəndaşların bərabər hüquqlarının tanınması, hətta bir çox Avropa ölkəsindən daha əvvəl qadınlara seçki hüququnun verilməsi, Azərbaycan dilinin dövlət dili elan edilməsi, təhsil və mədəniyyətin inkişafına xüsusi diqqət göstərilməsi, nizami milli ordunun, təhlükəsizlik strukturlarının qurulması Xalq Cümhuriyyətinin yürütdüyü siyasətin miqyasını, mahiyyət və mənasını əyani şəkildə səciyyələndirir. Demokratik Respublikanın Parlamenti tərəfindən keçirilən iclas və hazırlanan qanunlar xüsusi ilə də 16 yaşınadək uşaqların işləməsinin qadağan olunması, qadınların səhhətinə və fiziki imkanlarına uyğun olmayan işlərə qəbul edilməməsi, hamilə qadınlara güzəştlər edilməsi, müəssisələrdə işləyən qadınların südəmər uşaqları üçün xüsusi yerlərin ayrılması, uşaq bağçalarının açılması, məktəblərin sayının artırılması və digər məsələlərlə bağlı aparılan müzakirələr həmin dövrdə qadınlar üçün yaradılan imkanların parlaq nümunəsidir.

1919-cu ilin əvvəllərində qadın xeyriyyə cəmiyyətinin nəzdindəki qadın peşə məktəbinin fəaliyyətinin bərpa edilməsi haqqında məsələ qaldırmışdı. 1919-cu il aprelin 25-də hökumət hələ 1917-ci ildə qadın müsəlman xeyriyyə cəmiyyətinin nəzdində açılmış və 1918-ci ilin mart hadisələrindən sonra öz fəaliyyətini dayandırmış qadın məktəbində məşğələlərin bərpa edilməsindən ötrü vəsaitin ayrılması haqqında sərəncam verdi. Tezliklə Bakı qadın müsəlman xeyriyyə cəmiyyətinin nəzdindəki qadın peşə məktəbi yenidən açıldı. Bu məktəb yoxsul, yəni cəmiyyətin nəinki ali, hətta orta təhsil almağa imkanı çatmayan təbəqələrindən olan qadınlara real imkanlar yaradır və onlar üçün perspektivlər açırdı. Məryəm xanım Bayraməlibəyova Lənkəranda 50 uşağın təhsil aldığı ilk müsəlman qız məktəbində dərs deməklə yanaşı, 1921-ci ilədək bu məktəbə rəhbərlik etmiş, dram və xor dərnəkləri təşkil etmişdi. Məryəm xanım 1919-1920-ci illərdə Lənkəran qızlar gimnaziyasının inspektoru olmuş, 1919-cu ildə Lənkəranda ilk qadın Xeyriyyə cəmiyyəti yaratmışdır. M.Bayraməlibəyovanın təsis etdiyi “Ünas” məktəbində 1920-ci ildə fəaliyyətə başlayan dram dərnəyi də işə başlamışdı. Burada hazırlanmış tamaşaların iştirakçıları yalnız qızlar idi.

Qadınlar Sosial Təminat Nazirliyi sistemində işləyirdilər. Şamaxı dairə müfəttişliyində Xanım Orucəliyeva tərbiyəçi, Məsmə Məmmədova isə müəllimə işləyirdi. Qarabağ dairə müfəttişliyində Atabəyova soyadlı xanım işləyirdi, Şuşa müsəlman kimsəsizlər sığınacağının müdiri İşrət Əlibəyova, tərbiyəçisi isə Mənzər Novruzova idi. Zəngəzurdakı Zəngilan sığınacağının müdiri isə Dilarə xanım Cavanşir idi.

Azərbaycanın ilk qadın pedaqoqlarından biri olan Mədinə xanım Qiyasbəyli 1918-ci ilin iyun ayında Qazax qəzası xalq məktəbləri inspektoru təyin edilmişdi. Mədinə xanım qəzada maarif işinin genişləndirilməsi yolunda yerli ziyalılarla birlikdə qüvvəsini əsirgəmədən çalışırdı. Qadınlar uşaq bağçaları və körpələr evlərinin yaradılmasında iştirak edirdilər. Lakin həmin təşkilatlarda işləyəcək kadrlar çatışmırdı. Bu məsələ mətbuat səhifələrində də müzakirə edilirdi. Görkəmli azərbaycanlı publisist Fərhad Ağazadə “İlk kooperativ uşaq bağçası” məqaləsində qeyd edirdi ki, uşaq bağçaları üçün tərbiyəçilər xüsusi kurslarda hazırlanmalıdır.

1918-ci ilin noyabrında imperiyaları parçalamış, geosiyasi sərhədləri dəyişən, insanlara iztirab, ölüm və aclıq gətirən I Dünya müharibəsi başa çatdı. Müharibə illərində xeyli uşaq valideynini itirmişdi. Bu proseslər Azərbaycana da təsirsiz ötüşməmişdi. Maliyyə çətinliyinə baxmayaraq, AXC hökuməti qadınlara və uşaqlara qayğı göstərməyə çalışırdı. Dilənçilik və sahibsiz uşaqların ağır həyat tərzi ilə mübarizə üçün şəhər duması “Uşaq evi” cəmiyyətinə maddi vəsait ayırdı. Azərbaycan uşaqları üçün çox işlər görmüş doktor Yevsey Yakovleviç Gindesin başçılıq etdiyi “Uşaqları Mühafizə Liqası” bu istiqamətdə böyük işlər görürdü. Cəmiyyət sədrinin müavini Nəsib bəy Yusifbəylinin həyat yoldaşı Eynülhəyat Yusifbəyli idi. Bu cəmiyyət Bakıda 17 yaşınadək uşaqların həyat şəraitinin öyrənilməsi və onlara kömək göstərilməsi ilə məşğul olurdu. Eynül Həyat xanımın təşəbbüsü ilə 1919-cu ildə Uşaqları Mühafizə Liqası Ədliyyə Nazirliyi qarşısında uşaq məhkəməsinin təsis edilməsi haqqında vəsatət qaldırdı. Məqsəd məhkəmənin köməyilə valideyn və qohumlarını itirmiş uşaqları cinayət mühitindən təcrid etmək və onları etibarlı əllərə tapşırmaq idi. E.Usubbəyova 1918-1920-ci illərdə Bakı məktəblərində müəllimə işləmişdi.

1918-ci ilin sentyabrında doktor Y.Y.Gindesin sədrliyi ilə uşaqlara yardım Bürosu yaradıldı. Onun müavini isə xanım Mahmurova idi. 28 noyabr 1918-ci il tarixində Uşaqlara yardım Bürosunun ilk iclası keçirildi. Müsəlman qadın xeyriyyə cəmiyyətini Liza Muxtarova, müsəlman sığınacağını isə Vasilyevskaya təmsil edirdi. Uşaqlara yardım bürosunun Mərkəzi evin nəzdində qida məntəqələri şöbəsi naharların verilməsini həyata keçirirdi. Musa bəy Rəfiyevin rəhbərlik etdiyi Sosial Müdafiə Nazirliyi ərzaq şöbəsini maliyyələşdirirdi. Nazirin müavini Rüstəm xan Xoyski Bakının dağlıq hissəsinə, Suraxanı, Sabunçu və Ramanada yaşayan müsəlman əhaliyə, xüsusilə də qida məntəqələrinə gələ bilməyən qadınlara quru ərzaqlar daşıyan paylama məntəqələrinin açılmasında kömək edirdi. Nahar əsasən pulsuz, ya da bir-iki qəpiyə verilirdi. Bakı əhalisinin mütləq əksəriyyəti azərbaycanlılardan ibarət olsa da, onlar pulsuz nahardan istifadə etməməyə çalışırdılar.

Tanınmış ictimai xadim, Cəlil Məmmədquluzadənin həyat yoldaşı Həmidə Cavanşir 1918-1920-ci illərdə əvvəlcə Şuşada, sonra da doğma Kəhrizli kəndində toxuculuq emalatxanası açmışdı. Bu sahibkarlıq ona böyük zəhmət bahasına başa gəlmişdi. O, yoxsul ailələrdən olan, özünə iş və yemək tapa bilməyən qadınları işə cəlb etmişdi. O, azərbaycanlı əhaliyə qarşı erməni təcavüzü zamanı öz doğma evlərini tərk etməyə məcbur olmuş qadınlara xüsusilə böyük köməklik göstərirdi. Sonralar həmin qadınlar Həmidə xanımın bu fəaliyyətini minnətdarlıqla qeyd edirdilər. Azərbaycanın bütün müəssisələrində qadınlar, özü də müxtəlif millətlərdən olan qadınlar eyni şərtlərlə çalışırdılar. Üstəlik, 1918-1920-ci illər ərzində işləyən qadınların sayı artmış, 1920-ci ilin aprelində işçi qadınların sayı kişilərinki ilə demək olar ki, bərabərləşmişdi.

Hökumət yaşlı əhalinin savadlanmağa cəlb edilməsi üçün tədbirlər görürdü. Azərbaycanlı qadınların savad almasına xüsusi əhəmiyyət verilirdi. 24 oktyabr 1919-cu il tarixində Xalq Maarifi Nazirliyi Azərbaycan milli gimnaziyasının nəzdində yetkin türk qadınları üçün kursların təntənəli açılışı oldu. Kurslara Eynülhəyat xanım Yusifbəyli rəhbərlik edirdi. Tədris müəssisələrinin milliləşdirilməsinin səmərəli həyata keçirilməsi məqsədilə orta və ibtidai məktəblərin milli sinif müəllimlərinin hazırlanması üçün Nazirlik 17 iyul 1919-cu il tarixində qəbul edilmiş qanuna əsasən qısamüddətli pedaqoji kurslar təşkil etmişdi. Bakıda və Gəncədə ikiaylıq qadın pedaqoji kurslar açılmışdı. 1919-cu ilin sentyabrında Bakıda, Gəncə və Şəkidə ikiillik qadın pedaqoji kurslarının açılması haqqında qanun layihəsi hazırlanmışdı.

Bütün bu faktlar Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və milli dövlət quruculuğunun bərqərar edilməsi xalqımızın suverenliyinin təmin olunmasında, tarixi yaddaşının formalaşmasında müstəsna əhəmiyyət kəsb edir. Azərbaycanın ümummilli lideri ulu öndər Heydər Əliyevin əsasını qoyduğu, dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən və daha da gücləndirilən mütərəqqi siyasət nəticəsində bu gün ölkəmiz Azərbaycan Xalq Cümhuriyyətinin sədaqətli və layiqli varisi kimi demokratik dövlət quruculuğu proseslərini sürətlə həyata keçirir və inkişaf etdirir. Bunun bariz nümünəsi olaraq, möhtərəm Prezidentimizin 2018-ci ilin Azərbaycan Respublikasında “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan edilməsi Fərmanını göstərmək olar.

1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti devrildi və yeni iqtisadi-siyasi sistem yarandı. Sovet hakimiyyəti dövründə bir sıra çətinliklərə baxmayaraq, Azərbaycan qadını inamla özünü ifadə edir, həyatın bütün sahələrində aktiv fəaliyyət göstərirdi. Ölkəmizdə dövlət qadın siyasətinin əsas prinsiplərinin müəyyən edilməsi və dövlət səviyyəsinə qaldırılması məhz ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. O, istər sovet hakimiyyəti, istərsə də müstəqillik dövründə milli qadın hərakatının formalaşması, genişlənərək institutlaşması üçün böyük işlər görmüşdür. Ulu öndər qadınların rəhbər vəzifələrdə irəli çəkilməsinə xüsusi diqqət verirdi. Qadınlarla bağlı heç bir yığıncağ, iclas, qurultay nəzərindən kənarda qalmırdı. Müstəqilliyimizin ən ağır zamanında belə “Azərbaycan qadınlarının Milli Komitəsinin yaradılması haqqında” Fərman imzaladı. 1998-ci ildə Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradıldı. Xüsusilə qeyd etmək lazımdır ki, MDB ölkələri içərisində yeganə bizim ölkəmizdə belə bir dövlət qurumu var. Zaman keçdikcə, ölkədə ailə, qadın və uşaq məsələləri kompleks yanaşma tələb etməyə başladı. Və bu zərurət yeni Komitənin yaranmasına səbəb oldu. Möhtərəm Prezident İlham Əliyevin Sərəncamı ilə 2006-cı ildə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradıldı.

Hazırda cəmiyyətin ictimai-siyasi həyatında və idarəetmə sistemində fəal mövqe tutan qadınlar, müstəqil Azərbaycanın daha da inkişafı, dövlətçilik ənənələrinin möhkəmlənməsi naminə əzmlə çalışırlar. Bu fəallıq Azərbaycan qadınının malik olduğu tarixi ənənələrlə yanaşı, ölkəmizdə həyata keçirilən gender siyasətinin mahiyyətindən - qadınlara cəmiyyətin tamhüquqlu üzvü kimi bütün imkanlardan bərabər istifadə üçün zəruri şəraitin yaradılmasından irəli gəlir. Qadınlarımızın ölkə həyatında rolunu yüksək qiymətləndirən cənab Prezident İlham Əliyev demişdir: “Əminəm ki, cəmiyyət qarşısında öz məsuliyyətini bütün dərinliyi ilə dərk edən Azərbaycan qadını bundan sonra da müstəqil respublikamızın tərəqqisinə böyük töhfələr verəcəklər”.



**Hicran HÜSEYNOVA,**
**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, siyasi elmlər doktoru, professor.**

Bu gün müstəqil Azərbaycan Respublikasının qadınları Parlamentdə, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, bələdiyyələrdə, təhsildə, səhiyyədə, ölkə iqtisadiyyatının inkişafında sahibkar kimi biznes strukturlarında, kənd təsərrüfatında, orduda, idmanda, milli təhlükəsizlik və hüquq-mühafizə orqanlarında, İKT sahəsində kişilərlə bərabər rəhbər vəzifələrdə təmsil olunurlar.

Dünyanın bütün məşhur şəxsləri “Hər bir uğur qazanmış kişinin arxasında bir qadın dayanır” fikrini təsdiq edir. Fikrimcə, hər bir uğur qazanmış qadının arxasında ona hərtərəfli dəstək olan kişi dayanır. Və təkcə kişi deyil, bütövlükdə ailə, mənəvi dəyərlərə bağlılıq dayanır. Biz qadınlarımızı hansı obrazda görmək istəyirik? Özünə inamlı, güclü, professional, eyni zamanda, öz ocağının qoruyucusu kimi. Belə bir balans və harmoniya mümkündür. Bu gün bizim qadınlarımız arasında belə nümunələr var. Cənab Prezident İlham Əliyev tərəfindən Mehriban xanımın Birinci vitse-prezident təyin edilməsi də cəmiyyətdə qadın iştirakçılığına, bütövlükdə qadına verdiyi önəmin bariz göstəricisidir. Respublikanın Birinci vitse-prezidenti Mehriban xanım, ailəsinə göstərdiyi qayğı, eyni zamanda, ictimai-siyasi fəaliyyəti, həm də elmi yaradıcılığı ilə Azərbaycan qadınlarına həmişə örnəkdir. Biz çox fəxr edirik ki, ilk Avropa və IV İslam Həmrəyliyi Oyunlarına bizim Birinci xanımımız başçılıq etdi, bu da bir daha dünyaya Azərbaycan qadınının yüksək intellektini və peşəkarlığını göstərmiş oldu. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli və səmərəli fəaliyyəti nəticəsində Azərbaycan qadınlarının ölkənin ictimai-siyasi həyatında aktiv iştiraka marağı artmışdır. Adı cəmiyyətimizdə xeyirxahlıq, insanlara kömək, nəciblik məzmunu ilə assosiasiya olunan Mehriban xanım Əliyeva sosial ədalət və humanizm prinsiplərinə sadiqliyinə görə çoxsaylı beynəlxalq mükafatlara layiq görülərək, dünya səviyyəsində Azərbaycan qadınının müsbət obrazının formalaşmasında əvəzsiz rol oynayır. Mehriban xanım ölkəmizdə elmin, təhsilin, mədəniyyətin inkişafı, sosial problemlərin həlli naminə gördüyü fəal işlərlə yanaşı, gender problemlərinin, qadınlara qarşı bütün zorakılıqların, ənənəvi Azərbaycan ailəsinə zidd olan stereotiplərin aradan qaldırılmasına xüsusi diqqət yetirir. Bütün bunlar Mehriban xanım Əliyevanın yüksək siyasi potensiala malik olduğunu təsdiqləyir. Və eyni zamanda, Azərbaycan qadınının modern tələblərə uyğun obrazını nümayiş etdirir. Bu gün müasir qadın hərəkatının yeni prioritetinin müəyyən edilməsi Mehriban xanımın çağırışında öz əksini tapıb: “Biz bu gün bərabər hüquqlardan bərabər imkanlara keçid siyasətini gerçəkləşdiririk. Mən bu yolda bütün Azərbaycan qadınlarını daha fəal olmağa, öz potensialını genişləndirməyə, cəmiyyətdə öz sözünü deməyə çağırıram”. Bu, Mehriban xanımın qadın hüquqlarının qorunması istiqamətində irəli sürdüyü yeni tendensiyanın əsasıdır.

Əziz xanımlar, bacılar, analar, sizi bir daha 8 Mart Beynəlxalq Qadınlar Günü münasibəti ilə ürəkdən təbrik edirəm. Qoy hər bir gününüz sizə sevinc, şadlıq gətirsin. Ailənizə səadət, fəaliyyət göstərdiyiniz sahədə isə nailiyyətlər arzulayıram. Çünki sizin uğurunuz Azərbaycanın daha da güclənməsi və firavanlığı yolunda bir addımdır. İnanıram ki, qadınlarımız hər zaman istər milli dövlətçiliyin formalaşmasında və idarə olunmasında, xalqımıza məxsus dəyərlər sisteminin yaşadılmasında, istərsə də torpaqlarımızın müdafiəsində əhəmiyyətli töhfələrini verəcəkdir. ■